# BMT-nin informasiya portalı Prezident İlham Əliyevin Baş Assambleyanın 75-ci sessiyasının ümumi debatlarında çıxışını xüsusi xəbər kimi yayıb

**BMT-nin informasiya portalı Azərbaycan Prezidenti İlham Əliyevin Baş Assambleyanın 75-ci sessiyasının ümumi debatlarında video-formatda çıxışını xüsusi xəbər kimi yayıb.**

AZƏRTAC xəbər verir ki, "Azərbaycan Prezidenti Baş Assambleyada: Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayıb və olmayacaqdır" sərlövhəli informasiyada dövlətimizin başçısının Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti, törətdiyi son təxribatlar, beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozması, həmçinin Azərbaycanın sabit, müasir, demokratik və multikultural dövlət kimi inkişafı ilə bağlı fikirləri yer alıb.

Qeyd edək ki, Azərbaycan Prezidentinin çıxışının BMT-nin informasiya portalında xüsusi xəbər kimi verilməsi dövlətimizin başçısının çıxışının əhəmiyyətinin, aktuallığının və cənab İlham Əliyevin dünyada siyasi nüfuzu və çəkisinin əyani göstəricisidir.


Новости ООН

Президент Азербайджана в Генассамблее: вопрос территориальной целостности Азербайджана никогда не был и не будет предметом обсуждения

Azərbaycan.- 2020.-26 sentyabr.- S.2.